# ELM və HƏYAT

Azərbaycan
Milli Elmlər
Akademiyası

Elmi-populyar jurnal

ISSN: 2710-0944 № 1 (475), 2022

*Jurnal 1961-ci ildən nəşr olunur*



**Ələddin MƏLİKOV**
*AMEA RH aparatının Təhsil şöbəsinin müdiri, dosent*

# Buddizmin tarixi, inancları və təriqətləri

**"Buddizm" dünyada ən geniş yayılmış dinlərdən biri olaraq, eramızdan öncə VI əsrdə yaşamış Buddanın ərsəyə gətirdiyi dinin adıdır. Dünyada Buddanın inanclarını qəbul edənlərə buddist deyilir. Qeyd etmək lazımdır ki, Buddizmdə Budda tanrı yerinə qoyulur. Əslində isə Budda özünün insan olduğunu söyləmiş və ilahlıq iddiasında olmamışdır. Lakin ölümündən sonra Buddaya tabe olanlar onu tanrılaşdırmış, adına məbədlər qurub sitayiş etmişlər. Buddizm meydana gəldiyi Hindistanda, öz təsirini çoxdan itirmiş, induizm ilə əvəz olunmuşdur və hazırda Hindistanda buddistlər əhalinin bir faizindən az hissəsini təşkil edir. Buddizm Nepal, Birma, Tailand, Seylon, Kamboca, Laos, Vyetnam, Çin, Yaponiya, həmçinin Buryat, Kalmık və Tuva xalqları içərisində geniş yayılmışdır.**

## Buddizmin meydana gəlməsi

Buddizm - dünyada xristianlıq və islamla yanaşı ən geniş yayılmış dinlərdən biridir. Buddizmin banisi Siddhartha Qautamadır. Budda ("nurlu" deməkdir) onun ləqəbidir. Onun əsl adı "Sidharta Sakyamuni"dir. Buddizm eramızdan təqribən altı əsr əvvəl Hindistanda meydana gəlmiş və Şərqin bir sıra ölkələrinə yayılmışdır. Buddist kilsə buddizmin yaranması tarixini eramızdan əvvəl 544-cü ildən hesab edir ki, bu da həmin dinin banisi, əfsanəvi Qautamanın vəfatı ili ilə üst-üstə düşür.

Buddizm elan edirdi ki, o dünyada nicat əldə etmək, nirvanaya nail olmaq üçün bu və ya digər kastaya mənsubiyyət rol oynamır, bunun üçün yalnız buddizmə inanmaq və onun qoyduğu qaydalara uyğun yaşamaq lazımdır. Əsasən kşatrilər kastasına mənsub olan iri quldarlara buddizmin belə mövqeyi əlverişli idi. Kşatrilərin yardımı sayəsində buddizm brahmanizmi müvəffəqiyyətlə sıxışdırıb aradan çıxarmağa nail oldu və Maurilər sülaləsi dövründən (eramızdan əvvəl IV əsrdə) bu din Hindistanda hakim din olmağa başladı. Həmin sülalədən olan üçüncü imperator Aşoka (eramızdan əvvəl 273-232- ci illər) buddizmin qüvvətlənməsinə xüsusilə kömək etdi  və onu dövlət dini mövqeyinə yüksəltdi. Yenə də onun vaxtında Hindistandan xaricdə - Seylonda və Cənub-Şərqi Asiya ölkələrində də buddizm yayılmağa başladı. Bir qədər sonralar, eramızın I əsrində buddizm Çində, VI əsrdə - Yaponiyada, XVI əsrdə - Monqolustanda, XVII- XVIII əsrlərdə Rusiyada, buryatlar və tuvinlərin arasında yayılmağa başladı. Buddizm Hindistanda e.ə. birinci minilliyin ortaları - eramızın birinci minilliyinin əvvəllərində yüksək inkişaf etməyə başladı və sonralar o, hinduizmə yaxınlaşdı. Cənub-Şərq ölkələrində Cənubi Buddizm (Hinayana), şimal ölkələrində isə Şimali Buddizm (Mahayana) üstün mövqe tutdu. Hələ Hindistanda brahmanizmin və hinduiz-

min təsirinə məruz qalmış mahayana şimal ölkələrinin şəraiti və dini adətləri ilə toqquşaraq, daosizm (Çin), şintoizm (Yaponiya), Tibetdəki yerli dinlərlə qovuşmuş müxtəlif cərəyanların mənbəyi olmuşdur.

Buddizmə görə, insan həyatı şər və əzabdan ibarətdir. Əzabları arzu və ehtiraslar doğurur. Son məqsəd - bütün arzulardan imtina etmək və ruhun nirvana ("nicat") vəziyyətinə nail olmaqdır. Bu isə mütləq sakitlik şəraitində hər cür həvəs və ehtirasa, xüdpəsəndliyə laqeydlik, dünya nemətlərinə biganəliklə əldə edilə bilər. Buddizm təliminə görə 3 dünya mövcuddur: insan, heyvan və ruhlara məxsus bu dünya, Allahın məskən saldığı səma səltənəti və Buddanın yaşadığı mütləq boşluqlar dünyası. Özünü üçüncü dünya - Budda aləminə hazırlamaq, insanların son məqsədi, idealı hesab olunur. Buddizm bu dini qəbul edən ölkələrin mədəniyyətinə də təsir göstərmişdir. Onun yayılması memarlıq, heykəltəraşlıq, rəssamlıq və ədəbiyyatda, elm və sxolastik təhsildə xüsusi sinkretik mədəni komplekslərin - Budda mədəniyyətinin yaranmasına səbəb olmuşdur.

## Buddanın həyatı

Buddizm dünyada üç ümumbəşəri dinin (Buddizm, Xristianlıq və İslam) ən qədimidir. Qautamanın həyatı barədə tarixdə o qədər əfsanələr yaradılmışdır ki, onun bu dünyada yaşaması və real şəxsiyyət olmasını da bəzən sual altına aparır və mübahisə doğurur. Onun tərcümeyi- halını vəfatının təxmini məlum olan tarixindən bir necə əsr sonra tərtib etməyə başlamışlar. Bu qədər gec yazılmış olan həmin tərcümeyi-hala əsasən, Qautama, Hindistanın şimal-şərq hissəsində Şakya qəbiləsinin padşahının oğlu olmuşdur. Qautamanın əfsanəvi tərcümeyi-halı onun ana bətninə düşməsi, doğulması və həyatı haqqında möcüzəvi hekayələrlə doludur. Bu tərcümeyi-halda qeyd edilir ki, Qautamanın anası Mayyanın uşağı yox idi və yalnız 45 yaşa çatdıqdan sonra bir gün yuxuda görür ki, ağ fil şəklinə girmiş ilahi onun üstünə qonmuşdur; bundan sonra o, hamilə olur; qarnındakı bu oğ-



lan uşağı onun sağ böyründən çıxır, uşaq doğulan vaxt zəlzələ baş verir, möcüzələr olur. Yeddi günə yenicə çatmış körpə gəzməyə və danışmağa başlayır.

Qautamanın tərcümeyi-halını yazan müəlliflər qeyd edirlər ki, o, dəbdəbəli şəraitdə böyürürdü və onu hər hansı bir pis işdən diqqətlə qoruyurdular. Lakin 29 yaşına çatandan sonra Qautama bir gün saray ərazisindən kənara gəzməyə çıxır və yolda bir qocaya, sonra xəstəyə və ən axırda dəfn mərasiminə gəlir. Qocalıq, xəstəlik və ölüm mənzərəsi şahzadəyə çox pis təsir göstərir. O zamandan o, insanların taleyinin faniliyi haqqında düşünməyə başlayır, həyatın keçici bir şey və mənasız olması inancına varır. İnsan cəmiyyətindən uzaqlaşmaq, insan olmayan bir yerə çəkilmək və burada, təklikdə, əzablardan xilas olmaq yolları haqqında, nicat yolu haqqında düşüncələrə dalmaq qərarına gəlir. Beləliklə, Qautama 6 il uzaq meşələrdə tərki-dünya həyat tərzi keçirir və bir dəfə ağac kölgəsində əyləşib dərin fikrə getdiyi vaxt, ona "nur" zühur edir və insanların nicat yolunu, nirvanaya (sükunətə) nail olmaq yolunu göstərən "dörd nəcib həqiqət" onun üçün aydın olur. Qautama tərki-dünya həyatına, asketik həyat tərzinə son qoyur, "dörd nəcib həqiqəti" insanlar arasında təbliğ etməyə başlayır və ilk buddist monax icmasının əsasını qoyur. Qautamanın ardıcılları onu Budda, yəni "nurlu", "müdrik" adlandırmağa başlayırlar. Sonralar onu Budda Şakya (Sakya) - Muni adı altında ilahi-

ləşdirirlər. Bəzi məbədlərdə buddist monaxlar Buddanın qalıqları - dişləri, saçları və s. kimi müqəddəs şeylər saxlayır. Bu qalıqları müşahidə etmək və hörmət üçün məbədlərə çoxlu dindarlar axışıb gəlir.

Qautama Buddanın fikrincə, insan ilk növbədə "Dörd şərafətli həqiqətə" agah olmalıdır:

1. Bu dünya həyatı əzabla doludur. (Duhka)
2. Bu əzabların səbəbi vardır. (Duhka - samudaya)
3. Bu əzablara son vermək mümkündür. (Duhka - nirodha)
4. Bu əzablara son qoyan bir yol vardır. (Duhka - nirodha - marga)

Qeyd edilən əzablara son qoyan yol səkkiz addımdan (Astangika - marga) ibarətdir. Bu səkkiz addıma səkkiz dilimli həqiqət yolu da deyilir. Həmin səkkiz addım Buddanın əxlaqi göstərişlərinin ana xəttidir:

1. Düzgün baxış, yaxud (qeyd etdiyimiz) "Dörd şərafətli həqiqətə" agah olmaq.
2. Düzgün iradə və məqsəd. Həqiqətə olan agahlıqla həyatı düzgün iradə və hədəflə tənzimləməkdən ibarətdir. Dünyaya bağlılığı kəsmək, şübhəli hisslər, başqalarının haqqında pis düşüncələr və hökmlərə son qoymaq, başqalarına (insan, yaxud heyvan və bitkilər) zərər vurmaqdan çəkinmək lazımdır.
3. Düzgün danışıq. Düz danışmaq, böhtan söyləməmək, ədəbsiz danışmamaq, yüngül və bihudə sözlərdən uzaq qalmaq.
4. Düzgün rəftar və xətalardan uzaqlaşmaq. Öldürmək, oğurluq, şəhvətpərəstlik, hiyləgərlik və əyyaşlıqdan uzaq durmaq.
5. Düzgün dolanışıq. Məişət ehtiyaclarını doğru yollarla təmin etmək.
6. Düzgün çalışmaq, pis və şeytani vəsvəsələri, düşüncələri uzaqlaşdırmaq, yerinə pak və dəyərli fikirləri, istəkləri qoymağa səy göstərmək.
7. Düzgün düşüncələri daim təkrarlamaq, unutqanlığa yol verməmək, mənəmliyi unutmaq. “Mənim əşyam”, “mənim bədənim” kimi ibarətlərin həqiqi olmadığını anlamaq. Çünki, "mən"in nə olduğu məlum deyil. Bu yolla, insan maddi aləmə bağlılığına tam olaraq son verir. Bu barədə, Buddanın "Digha"- nikaya- sutta" kitabında müfəssəl məlumat verilmişdir.
8. Düzgün diqqət. Buddizmdə, düzgün və doğru diqqətə yiyələnmək aşağıda qeyd edəcəyimiz dörd mərhələyə düzgün şəkildə tam riayət edilməyindən asılıdır.

## Buddizmin dini təlimi

Buddizmin "Müqəddəs" kitabları (qanunları) təqribən 10 min səhifədən ibarətdir. Buddizmin qanuniləşdirilmiş dini kitablari (Kanon) üç hissədən (Pitakadan) ibarətdir.

**Birinci pitaka -** "Vinaya" - buddist kilsə icması və bunun qaydaları haqqında materialdan ibarətdir.

**İkinci pitaka -** "Sutta" - buddizmin əsas ehkamlarını dialoqlar, Buddanın söhbəti şəklində verir.

**Üçüncü pitaka -** "Abidamma" - buddizmin əsas ehkamlarının şərhidir.

Bu pitakalardan başqa, buddaya və onun təliminə həsr olunmuş poemalar kulliyyatı da buddizmin dini kitablarına daxildir. Həmin kulliyyat ***"Sutta - Nipata"*** adlanır. ***"Cataki"*** adlı hekayələr kulliyyatı da buddizmin dini kitablarına daxildir. Həmin külliyyat buddanın əvvəlki yenidən yaranmasına dair 550 hekayədən ibarətdir. Buddizmin dini kitabında konkret şəxsi Allahdan - dünyanın yaradıcısından bəhs olunmur, lakin iddia olunur ki, dünyada dərk olunmayan, daimi sükunət vəziyyətində qalan bir növ ruhi varlıq hökm sürür. Budda özündə, budda nirvanada - həmin varlıqdır. Buddizmə görə bütün maddi, gözə görünən aləm real olaraq mövcud olmayıb, mistik ruhi varlığın - Buddanın zahiri təzahürüdür.

**Buddist təsəvvürlərə görə üç aləm vardır:**

1. Yer üzündəki aləm - hissiyyatlar aləmi, heyvanlar, insanlar, ruhlar bu aləmdə olur;
2. Göy aləmi - formalar aləmi, Burada Allahlar olur;
3. Tam boşluq aləmi burada budda olur.

Yalnız bu axırıncı aləm, əbədi ruhun təzahürü olan sirrli boşluq aləmi, daim və dəyişmədən mövcuddur; o biri aləmlər isə keçicidir və yenə də həmin ruhun - Buddanın təzahürüdür. Nəticə etibarı ilə sansara deyilən bütün gözə görünən torpaq və maddi aləm yox olacaq və ali boşluq aləmi ilə, əbədi sükunət aləmi, nirvana ilə birləşəcək.

Buddizm öyrədir ki, son məqsəd, ideal - maddi varlığın, sansarının əsarətindən xilas olmaq yolu ilə nirvanaya nail olmaqdır. Bunu şərh edən təlim Qautamaya isnad edilən "dörd nəcib həqiqət" haqqında moizələrin əsasını təşkil edir. Bu "həqiqətlər" aşağıdakı müddəalardan ibarətdir:

1. Həyat əzabdır.
2. Əzabın səbəbi arzular, qızğın meyillərdir.
3. Əzabdan xilas olmaq üçün öz arzularını, ehtirasını boğmaq lazımdır.
4. Arzuları boğmaq və əzablardan xilas olmaq. Bunun üçün insan Qautmanın göstərdiyi nicat yolu ilə, nirnavaya aparan yolla getməlidir.

Buddizm öyrədir ki, insan öləndən sonra da mövcud olur, çünki dünyada hər bir şey, o cümlədən insanlar da ruhun - özündə Buddanın ən xırda hissəciklərinin müvəqqəti kombinasiyalarının nəticəsidir. Buddist ədəbiyyatda "dxarma" adlanan bu hissəciklər öz hərəkəti ilə insanları əmələ gətirir. İnsanın ölməsi dxarmaların yalnız bu və ya digər birləşməsinin pozulmasıdır, bunların məhv olması deyildir. İnsan öldükdən dərhal sonra onun draxmaları yeni birləşmə əmələ gətirir və ölmüş adam, adətən yenə də insan şəklində yenidən yaranır.

## Karma nəzəriyyəsi

Ümumilikdə buddizm dindən daha çox, fəlsəfi sistemə bənzəyir. Məhz bu səbəbdən bəzi tədqiqatçılar ona fəlsəfi-etik təlim, idrakla bağlı elm və mədəni ənənə kontekstində yanaşmışlar. Lakin vurğulamaq lazımdır ki, buddizm kainatı yaradan varlığın mövcudluğundan bəhs etməsə də, ümumilikdə mistik təmayüllü din kimi xarakterizə olunur.

Buddizm dini təliminə görə insan dəfələrlə yenidən yaranmağa məhkum edilmişdir və o, öz əvvəlki mövcudiyyəti vaxtında keçirdiyi həyat tərzinə, əxlaqına məsuldur. İnsanın keçmiş mövcudiyyətləri vaxtındakı həyat tərzi üçün bu məsuliyyət və əcir buddist ədəbiyyatında "karma" qanunu adlanır. Karma nəzəriyyəsi səbəb-nəticə qanununun üzərində qurulmuşdur. Belə ki, şəxsin indiki həyatı, keçmiş həyatının nəticəsidir. Gələcək həyatı da indiki həyatının nəticəsidir. Karma qanunu buddizmin ictimai görüşlərinin əsasını təşkil edir; bu görüşlərin mahiyyəti ondan ibarətdir ki, insanın vəziyyəti və taleyi irəlicədən müəyyən olunmuşdur və əgər o, yoxsul və hüquqsuzdursa bu, yalnız onun keçmiş mövcudiyyətləri vaxtında pis əxlaqı üçün karmadır (əvəzdir) və əksinə, əgər o indi varlı, adlı- sanlı isə yenə də onun karmasıdır- keçmiş mövcudiyyətləri, vaxtında yaxşı əxlaqı üçün mükafatdır. Belə bir təlim istismarçı sinifləri tamamilə qane edir, çünki ictimai bərabərsizliyi və istismarı asanlıqla doğrulamaq üçün onların əllərinə bəhanə verir.

Buddizmin əxlaq təliminin əsas tələbləri bundan ibarətdir ki, insan dini düşüncələrə qapılmaq, dua oxumaq, arzularını və ehtirasını boğmaq yolu ilə, monax həyat tərzi sürməklə, itaətkarlıq və zülmə müqavimət göstərməmək yolu ilə özünü tamamilə "özünütəkmilləşdirməyə" həsr etməlidir.

Buddizm inandırmağa çalışır ki, insan bu qaydalara riayət etməklə tədricən bir sıra yenidən yaranmalardan sonra nirvanaya çata bilər, yəni həyatın dövriyyəsindən çıxıb boşluqda və sükunət vəziyyətində olan Budda ilə birləşə bilər. Lakin bir çox belə hallar da olmuşdur ki, bəzi adamlar öldükdən az sonra və ya hələ sağ ikən, buddist kilsə onları nirvanaya çatmış elan edirdi. Təəccüblü də olsa, bunlar nicat yolunda iyerarxaların və ya dünyəvi hökmdarların payına düşürdü. Buddizm öyrədir ki, axirətin ən çox forması olan nirvana ilə bərabər möminlər üçün cənnət və günahkarlar üçün cəhənnəm də vardır. Cənnət və ya göy sakinlərinin - tenqrilərin səltənəti nirva-

naya çatmaq üçün bir növ ara mövqedir. Buddist təsəvvürünə görə cənnət göy sakinlərinin "orta aləmində", Sukavatinin "işıqlı aləmində" yerləşir və buranın hakimi Budda Amitabadır. Buddizm dini təliminə görə, cənnətdə yaşamaq daimi deyil və daha yüksək aləmə keçmək üçün, nirvanaya çatmaq üçün bir növ pillədir. Belə hesab olunur ki, cənnətdə olan vaxtda da, insanda olan ruhi varlıq hələ də materiyanın əsarətindəndir və yalnız ən yüksək aləmdə, nirvanada həmin ruh əsarətdən tamamilə xilas olur və başlanğıc olan ruhi aləmlə qovuşur.

## Buddizmin müxtəlif təriqətləri

Eramızın əvvəllərində Buddizm iki məzhəbə bölünür: Hinayana (Kiçik araba və yaxud dar yol mənasınadır) və Mahayana (Böyük araba və yaxud geniş yol mənasınadır.) adlanan 2 böyük qola ayrıldı. Hər 2 qolun əsas dini-fəlsəfi məktəbləri I-V əsrlərdə formalaşmışdır.

Mahayanist məzhəbi eramızın I əsrində Hindistanda meydana gəlmişdir. Məzhəblər arasındakı fikir ayrılıq prinsipial məsələlər üzrə deyildir, fərqlilik metodikdir, daha doğrusu, nicat yolları haqqında olmuşdur. Hinayana öyrədir ki, nicat nirvanaya çatmaq, yalnız monax olduqdan sonra mümkündür. Mahayana isə hesab edir ki, hər bir dünyəvi buddist, kilsənin rəhbərliyi altında nirvanaya çata bilər. Mahayanaçılar messiançılıq ideyasını elan və iddia edirlər ki, buddalar öz arzusu ilə göylərdən bu dünyaya zühur etməyə, buddizm təlimini təbliğ etmək və insanların nirvanaya çatmasına yardım göstərmək məqsədi ilə insan şəklində təcəssüm etməyə qadirdir. Onlar belə cənnət və cəhənnəm məfhumlarını da işə salırlar. Mahayanizmin daha "güzəştli" nicat yolu verməsi, buddizmin məhz bu növünün geniş yayılmasını təmin etmişdir. Mahayanizm, başlıca olaraq Çində, Yaponiyada, Monqolustanda və buryatlar, kalmıklar, tuvinlər arasında daha geniş yayılmışdır.

## Təşkilatlanma və dini ayinləri

Buddizmin müxtəlif təriqətləri bir-birindən dini təlim əlamətləri ilə deyil, öz ayinləri və monastrlarının daxili həyat quruluşu etibarı ilə fərqlənir. Bu fərqlər ondan irəli gəlir ki, müxtəlif ölkələrə yayılan buddizm, sıxışdırıb aradan çıxardığı yerli dinlərin ayinlərini öz kilsə ayinləri tərkibinə daxil etmişdir. Buddist kilsəsi tərkibcə bütöv deyildir. Buddist kilsəsi ayrı-ayrı muxtar kilsələrdən ibarətdir, bunları ümumbuddist miqyasda kilsə iyerarxiyası birləşdirmir. Dalay Lama yalnız Çinin Tibet bölgəsindəki lamaist kilsənin başçısıdır və yalnız başqa ölkələrdəki buddist ruhanilər deyil, Çinin özünün də digər regionlarındakı buddist ruhaniləri də ona tabe deyil.

Yayılmış olduğu bütün ölkələrdə buddist kilsəsinin əsasını monastrlar təşkil edir. Monaxlar bir-birindən həm monastr və məbədlərdə tutduqları mövqelərinə görə, həm də verdiyi andlara görə fərqlənir.

Monaxlığa bir qayda olaraq, yalnız kişilər qəbul olunur, qadınlar isə yalnız çox qoca yaşlarında, ancaq monaxlığın birinci dərəcəsinədək buraxılır və belə halda, onlar bir qayda olaraq monastrlarda deyil, öz evlərində yaşayırlar.

Buddist məbədlərinə ibadət mərasimi adi dindarların iştirakı olmadan, təkcə lamalar tərəfindən yerinə yetirilir; lamalar buddizmin dini kitab mətnlərini xorla qiraət edir. Çoxlu dindarların gəldiyi təqdirdə dini bayramlar - şəbih - keçirilir.

Dindarlara bütün ömürləri boyunca lama rəhbərlik edir: Lama uşaq doğulduqda müvafiq mərasimi yerinə yetirir və ona ad qoyur, xəstə adamın yanına gedib xeyir və dua verir, dəfn mərasimini yerinə yetirir. Buddistlərin mənzillərinin yuxarı başında Buddanın heykəlciyi qoyulur, bunların qabağında isə kiçik qablarda qurban simvolu kimi su və azacıq yemək olur. Buddizmin bütün ayinləri və fəaliyyəti insanların şüurunda iz qoymaq və buddizmin anlayışlarını möhkəmlətmək məqsədinə yönəlmişdir.